*Heydər Əliyev—90*

# Ümummilli lider və Azərbaycan gəncliyi

***Gənclər cəmiyyətimizin fəal təbəqəsidir. Gənclər bu gün və xüsusi ilə gələcəkdə ölkəmizin inkişaf istiqamətlərini müəyyən edəcəklər.***

***Heydər Əliyev.***

Ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və 1994-cü ildə imzalanan "Dövlət Gənclər siyasəti haqqında" fərman gənclərin təhsili, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili problemlərinin həlli, hüquqlarının müdafiəsi, respublikanın ictimai-siyasi, mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə edirdi.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan gəncliyinin qüvvəsinə daim inanmış və demişdir: «Hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır. Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır».

Gələcəyimizin təminatçısı olan gənclərimiz bu gün toplumunun bərabər hüquqlu üzvləri kimi ictimai həyatın bütün sahələrində uğurla çalışırlar. Ölkəmizdə dəfələrlə gənclər forumu keçirilmiş, dövlət proqramları qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2011-ci il tarixində imzaladığı "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" məqsədyönlü sosial siyasətin göstəricisidir. 144 bənddən, 88 fəsildən ibarət olan proqram gənclərin azərbaycançılıq, vətənpərvərlik ideyaları, milli və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmasına, cəmiyyət həyatında fəal şəxsiyyət kimi yetişməsinə xidmət edən siyasətinin daha da təkmilləşdirilməsi məqsədini daşıyır. Dövlət Proqramında gənclərin təhsili, iş şəraitinin yaxşılaşdırılması, peşəkar gənc kadrların hazırlanması, gənclərin inkişafına yönəlmiş infrastrukturun yaradılması və digər bir çox vəzifələrin həyata keçirilməsi qarşıya məqsəd kimi qoyulmuşdur. Bu baxımdan ölkə rəhbərliyinin gənclərin sosial təminatına yönələn tədbirləri həm də dövlətin siyasətinin göstəricisi kimi qiymətləndirmək olar.

2 fevral ölkəmizdə Gənclər Günü kimi qeyd edildi. Məhz bu məqsədlə Qəbələ Rayon Təhsil Şöbəsində (RTŞ) «Heydər Əliyev və Azərbaycan gəncliyi» mövzusunda elmi-praktik konfrans keçirildi. Onlarla gənci özündə birləşdirən Qəbələ RTŞ üzrə keçirilən tədbirdə ümumtəhsil məktəblərinin gənc müəllimləri və şagirdləri iştirak edirdi. Qəbələ RTŞ müdirinin müavini İ. Hüseynov konfrans iştirakçılarını salamladı və konfransın işinə uğurlar arzuladı. Qəbələ RTŞ-nin metodkabinet müdiri A. Bayramova Dövlət Gənclər siyasətinin əsas istiqamətlərindən danışdı. Ümummilli liderin Azərbaycan gəncliyinin inkişafındakı rolunu qeyd etdi. A. Bayramova ulu öndərin bu sözlərini konfrans iştirakçılarının diqqətinə çatdırdı: «Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha böyük olacaqdır. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun. Əminəm ki, Azərbaycanın gəncliyi, ölkəmizin bu günü və gələcəyi həmişə parlaq, işıqlı olacaqdır».

A. Bayramova öz çıxışında bildirdi ki, gənclərimiz dövlətimizin əsas prinsiplərinə əməl etməlidirlər. Bu, müstəqil Azərbaycanın milli ideologiyasının prinsipləridir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək lazımdır. Bu mənada ümumtəhsil məktəblərinin də üzərinə böyük vəzifələr düşür. Azərbaycanın suverenliyi, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli -mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi gənclərimizə daim aşılanmalıdır.

Bu mənada gənc müəllimlərin gördüyü işlərdən danışan A. Bayramova qeyd etdi ki, Qəbələ təhsilinin çoxsaylı müəllim ordusunda onların öz nüfuzu, öz yeri vardır. Dövlət qayğısını öz üzərində hiss edən gənc müəllimlər Azərbaycan tarixinin, mədəniyyətinin təbliğinə xidmət edən intellektual oyunların, müsabiqələrin keçirilməsində fəal iştirak edir, ən uğurlu açıq dərslər təşkil edir, "Xəmsə" intellektual yarışlarında bilik və bacarıqlarını nümayiş etdirir, bilik yarışlarında münsiflər heyətinin üzvü kimi özlərini göstərirlər.

Konfransda gənc müəllimlərin məruzələri də maraqla dinlənildi. Gənc müəllimlərdən Ş. Abdullayeva «Heydər Əliyev və Azərbaycan gəncliyi», A. Musayeva «Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə» Dövlət Proqramı və Qəbələ gəncləri qarşısında duran vəzifələr», N. Əmiraslanov «İnformasiya və kommunikasiyalar texnologiyaları ili elan olunan 2013-cü ildə gənclərin fəaliyyət istiqamətləri» mövzularında məruzə etdilər.

Gənclər və idman idarəsinin əməkdaşı M. Səfərçinov gənc müəllimlərimizin Qəbələnin ictimai həyatındakı rolundan danışdı.

Konfransın sonunda pedoqoji fəaliyyətində daha böyük uğurlara imza atan gənc müəllimlərə və inşa yazı müsabiqəsində fərqlənən şagirdlərə fəxri fərmanlar və diplomlar təqdim edildi.

**T. SƏLİMOVA,**
**Qəbələ RTŞ-nin məsləhətçisi.**

# Qəbələ rayon qadınlarının IV konfransı

Bu günlərdə «Qafqaz» resort hoteldə rayon qadınlarının IV konfransı keçirilmişdir. Konfransa rayonun todkabinetinin müdiri Arifə Bayramova, mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova, Qəbələ





idarə və müəssisələrində, ictimai təşkilatlarında çalışan fəal qadınlar dəvət olunmuşdur.

Konfransda rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovanın «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 6 mart 2000-ci il tarixli fərmanının Qəbələ rayonunda icrasına dair hesabat məruzəsi dinlənilmişdir. Məruzəçi «Gender bərabərliyinin təminatları» və «Məişət zorakılığının qarşısının alınması» haqqında Azərbaycan Respublikası qanunları müddəalarının əhali arasında təbliğ edilməsi məqsədi ilə keçirilən silsilə tədbirlərin əhəmiyyətindən danışmış, qadın və uşaq hüquqlarının qorunması, qadın zorakılığına qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi istiqamətində ziyalılar, ağsaqqallar, din xadimləri, valideynlər və yuxarı sinif şagirdləri ilə keçirilən görüşlərin səmərəliliyini vurğulamışdır. Məruzə ətrafında təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova... Müalicə-Diaqnostika Mərkəzinin həkimi Şəhla Seyidova çıxış edərək rayon qadınlarının Qəbələnin sosial, iqtisadi və ictimai həyatında fəal rolundan danışmışlar.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, millət vəkili Aqiyə Naxçıvanlı və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Konfransda ətraflı nitq söyləyərək Azərbaycanın müstəqilliyindən ötən müddət ərzində ölkə qadınlarının vətənin ictimai-siyasi fəaliyyətində yorulmaz və gərgin əməyindən, Azərbaycanda gender bərabərliyindən, bu istiqamətlərdə ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi tədbirlərdən danışmış, cəmiyyətin sürətli inkişafında bu gün də qadınların fəal iştirak etdiyini vurğulamışlar.

Konfransda Azərbaycan Respublikası Qadınlarının IV Qurultayına 16 nəfər fəal qadın nümayəndə seçilmişdir.

**O. MƏMMƏDOV.**
**Fotolar**
**S. Umuyevindir.**